**UOT 07.0006**

# AZƏRBAYCANIN İLK TUNC DÖVRÜNÜN TƏDQİQAT TARİXİ VƏ TARİXŞÜNASLIĞI

**K.Ş.ƏZİZOV**
***AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu***
***kamal-azizov@mail. ru***

*Məqalədə ilk tunc dövrünə aid Azərbaycan ərazisində tədqiqatçılar tərəfindən aparılmış arxeoloji qazıntılardan bəhs olunmaqla bərabər, tədqiqatçıların Azərbaycanın ilk tunc dövrünə aid yazdıqları elmi əsərlər və məqalələrin məzmunu işıqlandırılmış və bu əsərlərin Azərbaycan arxeologiyasının tədqiqində və öyrənilməsində xüsusi əhəmiyyət kəsb etməsi qeyd olunmuşdur. Müəllif ilk tunc dövründə Azərbaycan ərazisində aşkar olunan yaşayış yerləri və qəbir abidələrindən əldə edilən arxeoloji materialları ətraflı təsnif edərək, Azərbaycanın digər zonalarından aşkar olunan maddi mədəniyyət nümunələri ilə də müqayisə etmişdir. Burada, həmçinin Azərbaycanda ilk tunc dövrünə aid arxeoloji abidələrin dövrləşməsi məsələsi də öz əksini tapmışdır.*

**Açar sözlər**: mədəni təbəqə, tunc dövrü, kurqan, tədqiqat işləri, qayaüstü rəsmlər, qədim abidələr.

Azərbaycan xalqının çoxminillik qədim tarixi müxtəlif maddi-mədəniyyət abidələrində təbəqələşmiş materiallar və yazılı mənbələr əsasında tədqiq edilib öyrənilmişdir. Azərbaycanın ilk tunc dövrü maddi-mədəniyyət abidələri XIX əsrdən etibarən xarici səyyahların və tədqiqatçıların diqqətini cəlb etmişdir. 1890-cı ildə fransız tədqiqatçısı Jak De Morqan tərəfindən Talışın dağlıq rayonlarında tunc dövrünə və dəmir dövrünə aid 230-a qədər müxtəlif tipli qəbir abidələri aşkar edilmişdir. Təkcə onu qeyd etmək olar ki, bir abidədən 16 kq-a qədər tunc əşyalar tapılmışdır. Morqan tədqiq etdiyi qəbrlərdə bir neçə ölünün bir yerdə basdırıldığını və skeletlərin bükülü vəziyyətdə olduğunu qeyd etmişdir. Jak de Morqan əldə edilən materialların çoxunu və ən qiymətlilərini Fransadakı Sen Jermen muzeyinə təhvil vermişdir. 1834-cü ildə İsveç səyyahı Dyubya de Monpero Qafqazı gəzərkən Naxçıvandan keçib Şuşaya gəlmiş, Şuşanın təbii-coğrafi şəraiti ilə yanaşı onun tarixi abidələri ilə də tanış olmuşdur. Bundan başqa o, Şuşadan Gəncəyə gedərkən Şahbulaq və Tərtər zonasında mövcud olan abidələr haqqında da ötəri məlumat vermişdir.

XIX əsrin 70-ci illərindən Qafqaz arxeologiyasının öyrənilməsinə xüsusi maraq oyanır ki, bunun nəticəsində də 1871-ci ildə Tiflisdə Qafqaz Arxeoloji Komitəsi yaranır. Cəmiyyətin Qafqazda apardığı işlərin nəticəsində 1901-ci ildə Tiflisdə Cəmiyyətin Qafqaz şöbəsi yaradılmışdır (28, 8). Moskva Arxeoloji Cəmiyyətinin xətti ilə 1896-cı ildə Zaqafqaziyaya ezamiyyətə göndərilmiş A.A.İvanovski Gədəbəy və Qalakənd ətrafında 72 daş qutu qəbri açmışdır. Yalnız faktları qeydə almaq və materialların təsviri ilə kifayətlənən E.A.Reslerden fərqli olaraq A.A.İvanovski əldə olunmuş maddi-mədəniyyət nümunələrinin elmi təhlilini verməyə çalışmış, onların dövrü haqqında mülahizələr söyləmişdir (11,8-9).

Azərbaycanda geniş həcmli qazıntı işləri aparan Şuşada realnı məktəbin müəllimi E.A.Resler Qarabağ və Gəncə ərazilərində tədqiqat işləri aparmışdır. E.A.Reslerin həm Qarabağ, həm də sonralar Gəncəçay hövzəsində aşkar etdiyi abidələrdən heç biri Xocalı nekropolu ilə müqayisə oluna bilməz. Üç dağ çayının Qarqarçay, Xocalıçay və İlisuçayın qovşağında, geniş ərazidə yerləşmiş bu möhtəşəm abidələr kompleksində E.A.Resler bir neçə qazıntı işləri aparmış, 20-dən çox kurqan və xeyli daş qutu qəbri qazmışdır. Ümumiyyətlə, 1892-1903-cü ilə qədər E.A.Reslər Moskva Arxeoloji Komissiyasının tapşırığı ilə Qarabağ və Gəncəçay ərazisində apardığı arxeoloji tədqiqatlar nəticəsində əldə edilən materialları sonradan Cənubi Qafqazdan əldə olunan materialların tərkibində Sankt-Peterburqun Ermitaj və Moskvanın Dövlət Tarix Muzeyinə göndərmişdir. E.A.Reslerden sonra arxeoloji qazıntıları Azərbaycanda Gəncəçay ərazisində dağ mühəndisi D. Şults davam etdirmiş, nəticədə bir neçə qəbir abidəsi aşkar etmişdir. Gəncəçay hövzəsində 1903-cü ildə Q.O.Rozendorf Gəncə şəhəri ətrafında çoxlu sayda kurqan qazmış və əldə etdiyi maddi mədəniyyət nümunələrini Arxeoloji komissiyasının xəbərlərində nəşr etdirilmişdir (12, 10-11).

1896-cı ildə Arxeoloji Komissiyanın tapşırığı ilə N.V.Fyodov Naxçıvanda-Qızılvəngdə nekropolda kəşfiyyat xarakterli qazıntılar aparmış, lakin hesabat təqdim etməmişdir. O, özü hesabat təqdim etməsə də, topladığı materiallar sonradan A.S.Spitsin tərəfindən 1909-cu ildə dərc olunmuşdur (17, 11). 1905-1907-ci ildə Moskva Arxeoloji Cəmiyyətinin Tiflis şöbəsinin razılığı ilə ehtiyatda olan zabit V.A.Skinder Gəncəçay ərazisində tədqiqat aparmış və tunc dövrünə aid yeddi kurqan və Çovdar kəndi yaxınlığında iki daş qutu qəbri açmışdır. 1908-ci ildə isə dağ mühəndisi Ferdinand Lass Daşkəsən və Quşçu kəndi ərazisində 7 daş qutu qəbri açmışdır. (16, 11)

1923-cü ildə “Azərbaycanı öyrənən və tədqiq edən cəmiyyət təşkil olunduqdan sonra arxeoloji tədqiqatlar sistemli şəkildə aparılmış və xüsusi jurnallarda nəşr olunmağa başlanmışdır. 1925-26-cı illərdə Dağlıq Qarabağ, Qəbələ, Gəncə, Naxçıvan ərazilərində arxeoloji tədqiqat işləri aparılmış, qədim maddi-mədəniyyət abidələri qeydə alınmış və onların ilk arxeoloji xəritələri tərtib edilmişdir. 1926-cı ildə İ.İ.Meşaninov tərəfindən Qızılvəngdə aparılmış tədqiqatlar nəticəsində 7 daş qutu açılmış və qəbirlərdən boyalı qablar, tunc silahlar

və bəzək əşyaları tapılmaqla bərabər daş alətlər də tapılmışdır. 1927-ci ildə İ.İ.Meşaninov “Çinin qədim boyalı qabları” adlı əsərində Qızılvəng boyalı qablarının yerli və fərqli xüsusiyyətlərini qeyd edərək, Zaqafqaziya və Yaxın Şərq boyalı qablar mədəniyyəti ilə əlaqəsini vurğulamışdır.

1936-cı ildə Şərur rayonunda aparılan araşdırmalar zamanı Ə.K.Ələkbərovun Şahtaxtıda açdığı daş qutu tipli bir qəbirdən 29 ədəd sadə qab və bəzək əşyalar ilə bərabər, incə zövqlə bəzədilmiş polixrom boyalı bir küpə də aşkar edilmişdir. Tədqiqatçı 1926-cı ildə Zəngəzur və Naxçıvan ərazilərinə səfəri zamanı Əlincəçay vadisində Ərəfsə və Nəhəcir kəndi yaxınlığında tunc dövrü əkinçi tayfalarının yaşayış yerlərini qeydə almış və çox qiymətli materiallar əldə etmişdir (18, 243-249). V.M.Sisoyev tərəfindən 1926-cı ilin iyulunda Xaraba-Gilanda kəşfiyyat xarakterli qazıntılar aparılmış, sərdabə və qəbir abidələri öyrənilmiş və buradan tapılan qabların qalıqları və s. əldə olunan bütün maddi mədəniyyət əşyaları Azərbaycan Dövlət Muzeyinə təhvil verilmişdir.

Azərbaycanının ilk tunc dövrü kurqanlarının bəziləri 1930-1940-cı illərdə həvəskar arxeoloq Y.İ.Hummel tərəfindən, Tovuz və Şəmkir rayonları ərazisində aşkara çıxarılmışdır. Tədqiqatçı Gəncəçay vadisində, Xanlar yaxınlığında açılmış torpaq kurqanların materialları əsasında bu regionun qədim əhalisinin metalişləmə, dulusçuluq, daşişləmə sənəti və dini görüşləri haqqında elmi nəticələr söyləmişdir. O, həmin kurqanları qəbilə quruluşunun dağılmağa başladığı dövrə aid edir və qoşa ailələrin yarandığını göstərir. Y.İ.Hümmelin tədqiqatlarının nəticələri onun “Arxeoloji oçerklər” kitabında nəşr olunmuşdur (21, 3-5).

Görkəmli qafqazşünas, humanitar elmlər sahəsində ilk dövlət mükafatına layiq görülmüş B.A.Kuftin 1941-ci ildə nəşr etdirdiyi “Trialetidə arxeoloji qazıntılar” kitabında Azərbaycan ərazisində qablar mədəniyyətinin inkişafı və tapılan bu qabların Cənubi Qafqazın digər ərazilərində tapıldığını, iqtisadi-mədəni əlaqələrdən bəhs etmişdir (24). Dövlət mükafatı laureatı B.B.Piotrovski 1949-cu ildə nəşr etdirdiyi “Zaqafqaziya arxeologiyası” adlı əsərində Azərbaycandan tapılmış arxeoloji materialların üzərində xüsusi dayanaraq, Qarqarçay və Tərtərçay hövzəsinin arxeoloji abidələrini də geniş təhlil edərək onlara öz münasibətini bildirmişdir.

1949-53-cü ildə S.M.Qazıyevin rəhbərliyi ilə Mingəçevirdə, Kür çayının sağ sahilində yaşayış yeri tədqiq edilmiş və ilk tunc dövrünə aid düzbucaqlı şəklində, torpaqdan yaşayış evlərinin qalıqları açılmış və ilk tunc dövrünə aid aşkar edilmiş dörd yaşayış binasından zəngin, maddi-mədəniyyət nümunələri əldə edilmişdir. Aparılan tədqiqatlar, toplanan materiallar burada e. ə. II minilliyin sonu e. ə. I minilliyin əvvəllərində patriarxat ailələrin yaşadığını göstərmişdir (20**)**. 1947-ci ildən Bakıdan 70 km uzaqda Qobustanda İ.M.Cəfərzadə tərəfindən qayalar üzərindəki rəsmlərin tədqiqinə başlanılmış və iki mindən artıq müxtəlif rəsmlər siyahıya götürülmüşdür. İ.M.Cəfərzadə bu abidələrin ən qədimini e. ə. V-III minilliyə aid etməklə, Qobustanda 1947-1966-cı ildə apardığı müntəzəm tədqiqatlar sayəsində, 750 daş üzərində aşkar olunan 6000-ə yaxın

kompozisiyalı qayaüstü rəsmlərdə - kollektiv əmək prosesi, taxıl biçini, ov səhnəsi, dəvə karvanları, ikiçarxlı araba və s. müxtəlif simvolik məzmunlu işarələr olduğunu aşkar etmişdir (22). A.A.Formozov 1959-cu ildə yazdığı "İbtidai incəsənətə dair oçerklər" adlı əsərində Qobustanı tunc dövründə maldarlar və ovçular üçün müqəddəs bir yer kimi qiymətləndirmişdir (30, 24-60).

1954-1956-cı ildə A.A.İessenin rəhbərliyi ilə Ağdam şəhəri yaxınlığında Üzərliktəpə yaşayış yerində tədqiqat işləri aparılmış və tunc dövrünün ilk və orta mərhələsinə aid zəngin materiallar əldə edilmişdir. Aşkar olunmuş iribuynuzlu heyvan sümüyündən olan əşyalar, sümük qalıqları maldarlığın, buğda və üyüdülmüş darının isə əkinçilik təsərrüfatında üstün mövqe tutduğunu göstərir. Tədqiqatçı Q.X.Kuşnaryeva Qarabağda, Xocalı və Üzərliktəpə abidələrinin tədqiqində yaxından iştirak etmiş və Üzərliktəpə tunc dövrü yaşayış məskəni haqqında ilk məlumat vermişdir. Bundan başqa K.X.Kuşnaryeva gürcü arxeoloqu T.N.Çubinişvili ilə birgə yazdığı monoqrafiyada, habelə sonrakı illərdə nəşr etdirdiyi müxtəlif səpkili məqalələrdə Qarabağın qədim abidələri ilə bağlı məsələlərə toxunmuş, bununla bağlı müxtəlif mülahizələr irəli sürmüşdür (25, 81-85). Tədqiqatçı R.M.Munçayev də öz əsərində Qarabağın ilk tunc dövrü kurqanlarının xronologiyasına toxunmuş və Üçtəpə kurqanını Maykop abidələri ilə müqayisə etmiş, onun ilk tunc dövrünün son mərhələsinə aid olmasını göstərmişdir (27).

İ.H.Nərimanov "Gəncəçay rayonunun arxeoloji abidələri" adlı monoqrafiyasında faktiki materiallara əsasən Gəncəçay hövzəsinin ən qədim dövrlərindən başlayaraq tunc dövrünün sonlarına qədərki maddi-mədəniyyət abidələrinin əhəmiyyətindən danışılır. Əsərdə abidələrdən əldə edilmiş zəngin keramika, xüsusilə cızma naxışları ağ maddə ilə doldurulmuş ağ inkrustasiyalı gil qablar, tunc məmulatı, dulusçuluq və metalişləmə sənətinin inkişafından bəhs olunur. (14); Azərbaycan arxeologiyasının tədqiqində böyük əməyi olan Q.S.İsmayılovun 1965-1967-ci ildə Kiçik Qafqazın cənub-şərq ətəklərini əhatə edən Quruçay və Köndələnçay hövzəsinin tunc dövrü yaşayış yerlərində – Qaraköpəktəpə, Xantəpə, Günəştəpə, Üçüncü Kültəpə, Meynətəpə və Uzuntəpə abidələrində tədqiqat işləri aparmışdır. Q.S.İsmayılovun fikrincə Azərbaycanda xüsusi inkişaf mərhələsi keçmiş dulusçuluğun bir neçə müstəqil inkişaf mərkəzləri olmuşdur ki, bu dulusçuluq mərkəzlərindən biri də Quruçay və Köndələnçay vadisində fəaliyyət göstərmişdir (13).

Qərbi Azərbaycanın tunc dövrü abidələrinin öyrənilməsində C.Ə.Xəlilovun böyük xidməti olmuşdur. Onun "Qərbi Azərbaycanın tunc və dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri" adlı monoqrafiyasında bu ərazidəki tunc dövrü abidələrinin xarakteristik xüsusiyyətləri, xronologiyası və qədim əhalinin həyat tərzi verilmişdir. Əsərdə Qərbi Azərbaycanın yaşayış yerləri, onlara aid olan qəbir abidələri və müdafiə xarakterli siklop tikintiləri təhlil olunmuş və dəyərli elmi fikirlər söylənilmişdir (11).

I və II Kültəpə yaşayış yeri tədqiqatlarının nəticələri O.H.Həbibullayevin əsərlərində və bir sıra məqalələrində də öz elmi əksini tapmışdır. Tədqiqat-

çının əsərlərində tunc dövrü tikililəri, bu dövrün mədəniyyətlərinin özündən əvvəlki dövrün yerli eneolit mədəniyyətinin varisliyi əsasında formalaşması, Azərbaycanın şimal rayonlarından fərqli olaraq bu regionda boyalı qablar mədəniyyətinin inkişaf tapması və s. məsələlər haqqında elmi fikirlər söylənilmişdir. O.H.Həbibullayev əsərlərində tunc dövründə təsərrüfatın və sənətin inkişafını bölgənin qonşu ölkələrlə iqtisadi əlaqələrinin genişləndiyini qeyd etməklə, Naxçıvanın tunc dövründə özünün boyalı qabları və Ön Asiya tipli tunc məmulatına görə cənubla, sadə qabları və yerli istehsal məhsulu olan tunc məmulatına görə isə Şimalı Azərbaycan və Cənubi Qafqazın başqa bölgələri ilə iqtisadi əlaqələrinin olduğunu qeyd etmişdir (10, 17).

Naxçıvan ərazisindəki tunc dövrü abidələri V.H.Əliyevin monoqrafiyalarında və elmi məqalələrində də ətraflı təhlil olunmuşdur. Onun əsərlərində Azərbaycan boyalı qablar mədəniyyətinə aid arxeoloji abidələr, yaşayış yerləri və qəbir abidələri işıqlandırılmışdır. Bu abidələrdən əldə edilmiş gil qablar məmulatının, silah, bəzək əşyalarının təsnifatı və təhlili verilmişdir. Tədqiqatçının fikrincə, Naxçıvan Azərbaycanda boyalı qablar mədəniyyətinin mərkəzi olmuşdur. Altı fəsildən ibarət olan "Azərbaycanın orta tunc dövrü mədəniyyəti" adlı əsərində tədqiqatçı Azərbaycanın orta tunc dövrü yaşayış məskənləri və bu abidələrdən əldə olunmuş maddi-mədəniyyət nümunələri haqqında ətraflı elmi məlumat vermişdir (9, 19).

Qarabağın qədim arxeoloji abidələrindən danışarkən H.F.Cəfərov ilk tunc dövrü əhalisinin təsərrüfat məşğuliyyətindən, əsasən əhalinin əkinçilik və qismən maldarlıqla məşğul olduqlarını qeyd etməklə yanası, bu dövrə aid tikilmiş dövrün aşağı qatlarında evlərin dairəvi, üst qatlarındakı tikintilərin isə dördkünc planlı olduğunu bildirmişdir. Tədqiqatçı Üçoğlan qədim yaşayış yerində arxeoloji tədqiqat işləri aparmış və buradan ilk tunc dövrünə aid tapılmış arxeoloji materialların təhlili zamanı göstərmişdir ki, bu yaşayış yerlərindəki mənzillər və köməkçi təsərrüfat binaları əhəngdaşından hörülmüş, palçıqla bərkidilmişdir. Tədqiqatçı öz əsərlərində Qarqarçay və Tərtərçay hövzələrinin, yəni düzənlik və Dağlıq Qarabağın daha çox hissəsini əhatə edən Ağcabədi, Ağdam, Bərdə, Tərtər, Şuşa, Kəlbəcər rayonları ərazisində açılmış tunc dövrü abidələrdən əldə edilən maddi-mədəniyyət nümunələrini araşdıraraq daha da ətraflı işıqlandırmışdır (6).

C.N.Rüstəmovun "Qobustan dünyası" kitabında tunc dövrünə aid "Böyükdaş", "Dairə", yaşayış yerləri, kurqan abidələri və yeni qeydə alınmış 2000-dən çox qayaüstü rəsmlərdən bəhs olunmuşdur. Qobustan qayaüstü rəsmlərdən bir qismi tunc dövrünə aid edilmişdir. Bu təsvirlər Qobustanın tunc dövrü əhalisinin yaradıcılıq qabiliyyətini, dünyagörüşlərini, dini-ideoloji baxışlarını əks etdirir. F.M.Muradova və C.N.Rüstəmov tərəfindən Qobustanda "Ana zağa", "Firuz-1", "Dairə", "Böyükdaş" abidələrində tədqiqat işləri aparılmışdır.

S.H.Aşurovun "Naxçıvanın İlk Tunc dövrü keramikası" adlı kitabı Azərbaycanın ilk tunc dövrü dulusçuluq sənətini öyrənməkdə qiymətli mənbə sayı-

la bilər. Bu əsərdə Naxçıvanın Kür-Araz mədəniyyəti keramikasının yaranma ocaqları, yayılma arealı, forma və hazırlanma texnikası və naxışlanma üsullarına görə inkişaf mərhələləri, eləcə də qədim Azərbaycan üçün səciyyəvi olan Kür-Araz mədəniyyətinin Qafqazda və Yaxın Şərq ölkələrinə yayılması yolları göstərilmişdir. Müəllif kitabda Naxçıvanin arxeoloji abidələrindən aşkar olunmuş keramika məmulatının geniş təsnifatını vermiş, heyvan fiqurları və ocaq qurğularının semantikası ilə bağlı müəyyən məsələlərə toxunmuşdur (1). A.Q.Seyidov Naxçıvanın Kür-Araz mədəniyyəti abidələrinin, yaşayış yerlərinin və qəbir abidələrinin tədqiqini verməklə, onların tikinti xüsusiyyətləri haqqında da məlumat vermişdir. O, Kür-Araz mədəniyyəti abidələrindən əldə edilmiş maddi-mədəniyyət nümunələrinin klassifikasiyasını vermiş, bu abidələrin dövrləşməsi-xronologiyası məsələsi üzərində dayanaraq əsərlərində Naxçıvanın Kür-Araz mədəniyyəti abidələrinin dövrləşməsini verməyə çalışmışdır (15, 29).

V.B.Baxşəliyevin "Gəmiqaya təsvirlərinin poetikası" adlı kitabında e. ə. IV-I minilliklərə aid qaya təsvirlərinin struktur-sematik təhlili şərh edilmişdir. Gəmiqaya təsvirlərinin Azərbaycanın arxeoloji abidələri ilə vahid kompleksdə tədqiqi, folklor nümunələrinin və etnoqrafik materialların müqayisəli araşdırılması qaya təsvirlərinin böyük bir qrupunun semantikasını açmağa imkan vermişdir. Müəllifin "Gəmiqaya təsvirləri" adlı kitabında Gəmiqaya təsvirlərinin tarixi kökləri, təsvirlərin meydana gəlməsini şərtləndirən ictimai-siyasi amillərə toxunulmuşdur (2, 3). V.B.Baxşəliyev Naxçıvan Muxtar Respublikasının ərazisində arxeoloji abidələr, yaşayış yerləri və qəbir abidələrinin ensiklopedik məlumatını verməklə yanaşı və yaşayış yerlərindən tapılan arxeoloji materialların təsnifatını da vermişdir. Əsərdə adları sadalanan arxeoloji abidələr Naxçıvanın qədim və orta əsrlərə aid maddi-mədəniyyət nümunələrinin mədəni-tarixi prosesini izləməyə imkan verir (4).

Beləliklə, Azərbaycanın müxtəlif bölgələrində ilk tunc dövrünə aid külli miqdarda maddi-mədəniyyət nümunələri aşkar olunmuş, yaşayış yerləri, dəfn adətləri öyrənilmiş və kurqanların quruluşu haqqında maraqlı faktlar toplanılmışdır. Azərbaycan ərazisində aparılan arxeoloji qazıntılar zamanı aşkar edilən maddi mədəniyyət nümunələri ölkənin qədim tarixə malik olduğunu söyləməyə imkan verir.

## ƏDƏBİYYAT


1. Aşurov S.H. Naxçıvanın ilk tunc dövrü keramikası. Bakı: Nafta-Press, 2002, 158 s.
2. Baxşəliyev V.B. Gəmiqaya təsvirləri. Bakı: Elm, 2003, 168 s.
3. Baxşəliyev V.B. Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti. Bakı: Elm, 2004, 320 s.
4. Baxşəliyev V.B Naxçıvanın arxeoloji abidələri. Bakı: Elm, 2008, 304 s.
5. Baxşəliyev V.B, Marro. C, Aşurov. S. H. Ovçulartəpəsi. Bakı, Elm, 2010 s. 154.
6. Cəfərov H.F. Azərbaycan e. ə IV miniliyin axırı –I miniliyin əvvəlində Bakı: Elm, 2000, 183 s.
7. Cəfərov H.F. Tərtər-Bərdə-Ağdam rayonlarına arxeoloji səfər haqqında / Azərbaycanda arxeoloji tədqiqatlar. Bakı: Elm, 2008, 215 s.

8. Əliyev V.H. Tarixin izləri ilə. Bakı: Nurlan 1975, 80 s.
9. Əliyev V.H. Qədim Naxçıvan. Bakı: Elm, 1979, 76 s.
10. Həbibullayev O. H. Kültəpə arxeoloji qazıntıları. Bakı: Elm, 1959, 134 s.
11. Xəlilov C.Ə. Qərbi Azərbaycanın tunc və ilk dəmir dövrünün əvvələrinə aid arxeoloji abidələri. Bakı: Elm, 1959, 169 s.
12. İsmayılov Q.S. Abidələr,xatirələr,düşüncələr. Bakı: Gənclik, 1981, 94 s.
13. İsmayılov Q.S. Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri. Bakı: Elm, 1981, 64 s.
14. Nərimanov İ.H. Gəncəçay hövzəsinin arxeoloji abidələri, Bakı: Nurlan, 1958, 121 s.
15. Seyidov A.Q. Naxçıvan e. ə. VII-II minilliklərdə. Bakı: Elm, 2003, 338 s.
16. Səfərov Y. Arxeologiya tariximizdən / Elm və həyat jurnalı, 1987, №9, s. 10-11
17. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Наука, 1982, 258 с.
18. Алекперов А.К. Поездка в Зангезур и Нахичеванский край / Исследования по археологии и этнографии Азербайджана. Баку: Наука, 1960, с. 243-249.
19. Алиев В.Г. Кулытура эпохи средней бронзы Азербайджана. Баку: Наука, 1991, 256 с.
20. Асланов. Г.М, Ваидов Р.М., Ионе Г.И. Древний Мингечаур. Баку: АН Азерб. ССР 1959, 189 с.
21. Гуммелы Я.И. Археологические очерки. Баку: АзФАН 1940, 164 с.
22. Джафаров И.М. Гобустан . Наскальные изображения. Баку: Наука, 1973, 347 с.
23. Исмаилзаде Г.С. Азербайджан в системе раннебронзовой культурной общности Кавказа. Баку: Наука, 2008, 304 с.
24. Куфтин Б.А. Археологические раскопки в Триалети. Тбилиси: АН Гр.ССР 1941, 491 с.
25. Кушнарева К.Х, Чубинишвили Т.Н. Древние культуры Южного Кавказа. Л: АНССР 1970, с. 189.
26. Махмудов Ф.Р. Культура Юго-Восточного Азербайджана в эпоху бронзы и раннего железа. Баку: Наука, 2008, 215 с.
27. Мунчаев Р.М. Кавказ на заре бронзового века. История СССР Учебник. М.: 1975, с. 218.
28. Пиатровский Б.Б. Археология Закавказья. Л.: АНССР 1949, 133 с.
29. Сеидов А.Г Памятники Куро-Аракской культуры Нахичевани. Баку: Наука, 1993, 164 с.
30. Формозов А.А. Очерки по первобытному искусству. М.: Наука, 1969, 253 с.

## ИСТОРИЯ ИССЛЕДОВАНИЯ И ИЗУЧЕНИЯ РАННЕГО БРОНЗОВОГО ВЕКА В АЗЕРБАЙДЖАНЕ

**К.Ш.АЗИЗОВ**

### РЕЗЮМЕ

В статье говорится об археологических раскопках раннего бронзового века на территории Азербайджана, освещаются научные труды и статьи исследователей, посвященные этому периоду Азербайджана, и отмечается важная значимость этих трудов для исследования азербайджанской археологии. В работе подробно исследуются археологические материалы, обнаруженные в населенных пунктах и гробницах, относящихся к раннему бронзовому веку, найденных на территории Азербайджана, сравниваются образцы материальной культуры, обнаруженные в различных регионах Азербайджана. В статье также рассматривается вопрос периодизации археологических памятников раннего бронзового века на территории Азербайджана.

**Ключевые слова:** культурный слой, бронзовый век, курган, исследовательские работы, наскальные рисунки, древние памятники

# HISTORY OF THE STUDY AND EXPLORATION OF ARCHAEOLOGICAL MONUMENTS OF EARLY BRONZE AGE IN AZERBAIJAN

**K.Sh.AZIZOV**

## SUMMARY

The article titled "History of the study of archaeological monuments of Early Bronze Age in Azerbaijan" refers to the archaeological excavations of the Early Bronze Age in the territory of Azerbaijan, highlights research papers and articles of researchers dedicated to this period of Azerbaijan and accents particular importance of this work for the study of Azerbaijani archaeology. This paper profoundly investigates the archaeological materials of the Early Bronze Age in the settlements and tombs found in the territory of Azerbaijan. The sites are compared with samples of material culture found in various regions of Azerbaijan. The article focuses on a broad issue of chronology of archaeological sites of early Bronze Age in the territory of Azerbaijan.

**Key words**: cultural layer, Bronze Age, kurgan mound, researches, rock paintings, ancient monuments.